M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

KASPİ

12 iyul 2011, 120 (2530) www.kaspi.az Qəzet 1999-cu ildən çıxır Qiyməti - 40 qəpik

# Azərbaycan ziyalılarının ən parlaq nümayəndəsi

**Azərbaycan və Yaxın Şərq ədəbiyyatı tarixində silinməz izlər buraxan, realist dramaturgiyamızın və nəsrimizin banisi Mirzə Fətəli Axundzadənin zəngin və çoxşaxəli irsi əsrlər keçdikcə müasirliyini saxlayır, hər dövrdə yenidən tədqiq olunur, araşdırılır. Bu axtarışların coğrafiyası genişlənir, məzmunu dərinləşdikcə yeni-yeni elmi faktlar, qiymətli məlumatlar aşkara çıxır, dramaturqun həyatının bəzi maraqlı məqamları müəyyənləşir.**

M.F.Axundzadənin təvəllüd tarixi üç müxtəlif ildə (1811, 1812, 1814) göstərilib. Dramaturqun ölümündən (1878, mart) sonra onun oğlu Rəşidbəy Axundovun xahişi ilə, atasının uzun illər xidmət etdiyi rəsmi dövlət idarəsindən verilən əmək kitabçasında onun doğum tarixi 1811-ci il qeyd edilir. Əsl düzgün sənəd isə M.F.Axundzadənin özünün 1874-cü ildə tərtib etdiyi avtobioqrafiyadır. Orada təvəllüd tarixi 1812-ci il göstərilir (F.Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. 1974, s.254).

Mirzə Fətəli 1814-cü ildə atası Mirzə Məhəmmədtağı və anası Nanə xanımla Təbriz yaxınlığındakı Xamnə qəsəbəsinə köçüb, 13 yaşınadək İran Azərbaycanının müxtəlif bölgələrində yaşayıb, 1825-ci ildə anası ilə Şəkiyə qayıdıb. Fətəlinin ruhani olmasını istəyən Axund Hacı Ələsgər (anasının əmisi) 1832-ci ildə onu Gəncəyə aparır. Gənc Fətəli burada məntiq və fiqh elmlərini, habelə dahi Azərbaycan şair və filosofu Mirzə Şəfi Vazehdən xəttatlıq sənətini öyrənib. Lakin Mirzə Şəfinin gənc Fətəliyə təsiri bununla bitmir, bu görüş Mirzə Fətəlinin həyat və yaradıcılığına, ümumiyyətlə, onun bir mütəfəkkir kimi formalaşmasına ciddi təsir göstərir.

Dövrünün müasir elmləri ilə maraqlanan Fətəli 1833-cü ildə Şəkidə açılan rus məktəbinə daxil olur və bir il burada təhsil alır. 1834-cü ildə o, Tbilisiyə gedərək Qafqaz canişininin baş dəftərxanasında mülki işlər sahəsində Şərq dilləri mütərcimi təyin olunub və ömrünün sonuna qədər bu vəzifədə çalışıb. 1873-cü ildə ona polkovnik rütbəsi verilib.

1851-ci ildə Rus Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinə üzv seçilən Axundzadə sonralar Qafqaz Arxeoqrafiya Komissiyasında tədqiqat işlərinə cəlb olunur. Axundzadə "Əkinçi" qəzetinin nəşrinə böyük əhəmiyyət verib, onun səhifələrində "Vəkili Milləti-naməlum" imzası ilə məqalələr dərc etdirib.

Axundzadə bədii yaradıcılığına şeirlə başlayaraq "Səbuhi" təxəllüsü ilə tanınıb.

Axundzadə Azərbaycan ədəbiyyatında azad düşüncə tərzinin ən böyük nümayəndəsidir. Mirzə Fətəli İslam dünyasının ictimai, sosial və siyasi sahələrində radikal islahatların lüzumlu olması fikrini müdafiə edirdi.

M.F.Axundzadənin realizmindən insan psixologiyası, mənəviyyatı, onun inikası əsas cəhətlərdən biridir. Mütəfəkkirin yaradıcılığı haqqında hələ öz sağlığında xarici ölkələrdə dəyərli yazılar çap olunub, onun komediyaları rus, fars, ingilis, fransız, alman dillərinə tərcümə olunaraq, ona dünya şöhrəti qazandırıb. O dövrdə Azərbaycan yazıçılarından Rusiyada və Qərbi Avropada ən çox tanınan, məşhur olan, sevilən məhz Mirzə Fətəli Axundzadə olub. Əsərləri müxtəlif ölkələrdə, müxtəlif dillərdə çap olunsa da, ədibin Azərbaycan dilində komediyalarının çapı 1859-cu ildə (Tiflisdə) həyata keçib. Əsərləri ölkə teatrlarında tamaşaya qoyulub. Azərbaycan Dövlət Akademik Dram Teatrında 1873-cü ildə oynanan böyük dramaturqun "Lənkəran xanının vəziri" tamaşası ilə milli teatrımızın əsası qoyulub.

Azərbaycanda M.F.Axundzadə haqqında istər alimlərimiz, istərsə də yazıçılarımız çox yazıblar. Onlar ədibin həyatı, yaradıcılığı, ədəbi-ictimai və fəlsəfi fikirləri haqqında bir çox kitablar, monoqrafiyalar və elmi məqalələr dərc etdirib, komediyalarının, "Aldanmış kəvakib" povestinin, "Kəmalüdövlə məktubları" fəlsəfi əsərinin, şeirlərinin, məktublarının tarixi əhəmiyyətini, ideya-bədii xüsusiyyətlərini düzgün qiymətləndirən bir sıra dəyərli fikirlər söyləyiblər.

M.F.Axundzadənin komediyalarının nəşr olunmasının 50 illiyi münasibətilə "Tiflisski listok" (1903, 31 oktyabr) qəzetində görkəmli publisist, tənqidçi Hüseyn Minasazov (1881-1932) dramaturqun keçdiyi həyat yolu, onun doğum tarixi, uşaqlıq illəri, ömrünün sonuna qədər dövlət qulluğunda xidmət etməsini yığcam şəkildə işıqlandırmışdı:



"Mirzə Fətəli Axundov Azərbaycan ziyalılarının ən parlaq nümayəndələrindən biridir. Həyatımızın ən qaranlıq bir dövründə o, nadanlıq və qaranlıq dünyasına cəsarətlə hücum çəkmişdir... Müsəlmanlar bu mübariz filosofla fəxr etməlidir.

Məgər onu unutmaq olarmı?... Yubiley bayramı mütləq keçirmək lazımdır, hər necə olur - olsun keçirmək lazımdır. Bu, müsəlman həyatının hadisələrini dərk etmək və qiymətləndirməkdə bizim yetkinliyimizi nümayiş etdirən bir imtahan olmalıdır".

Ə.Haqverdiyevin M.F.Axundzadənin xatirəsini xalq qarşısında əbədiləşdirmək üçün yazdığı "Xəyalat" komediyası ziyalılar tərəfindən bu yubiley üçün əvəzsiz hədiyyə kimi qəbul edilir.

Ötən il dövlət başçısı İlham Əliyev Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinin qeyd olunması barədə sərəncam imzalayıb.

**Təranə**